# Humanitar atəşkəsin antihumanist qatilləri

## Ruh yüksəkliyi qələbənin rəhnidir

2016-ci ilin Aprel hadisələri, cəbhə xəttində erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri Silahlı Qüvvələrimizin gücünü təsdiq etdi. Peşəkarlığını göstərən və təsdiq edən ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu.

Bu il iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhəddinin Tovuz istiqamətində baş verənlər aprel hadisələrinin təsadüfi olmadığını təsdiq etdi. Bu hadisələr Azərbaycan Ordusunun Ermənistanı darmadağın etməyə qadir olduğunu, əsgərlərimizin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə ruhunun yüksək olduğunu nümayiş etdirdi. Bu döyüşlər həm də dövlətimizin və ordumuzun gücünün, xalqın birliyinin, həmrəyliyinin, vətənpərvərliyinin sübutudur. Ərazi bütövlüyümüzü bərpa etmək, işğalda olan torpaqlarımızı azad etmək hər bir vətən övladımızın ən başlıca arzu və vəzifəsidir.

Elə bu arzu, istəklə döyüşdü vətən oğulları-gözlərini qırpmadan canlarını fəda edən şəhidlərimiz! Torpaqlarımızı Vətən edən oğullarımız! Axı torpaq-uğrunda ölən varsa Vətəndir! Mübarizlər, Poladlar... - onların adı saysızdır. Onlar əbədilik ömür qazanan, xalqın yaddaşında daima gənc yaşlarında xatırlanan, vətəndaş adının simvolu kimi xatırlanacaqlar. Bu gün min bir çətinliklərlə böyüyən, əliqabarlı, çörəyini alın təriylə, ağır zəhmətiylə qazanan valideynlərin övladları - bu zəhmətin bəhrəsi - halallığın işığıyla səngərlərdə döyüşürlər. Vətəninin hər qarışı onlar üçün doğmadır, əzizdir. Axı Vətən bölünməz! Bu əqidə, bu güc atalarının qanı, analarının südüylə keçib onlara. Bu xalqın Koroğlular, Nəbilər, Mehdilər, Həzilər, Nigarlar, Həcərlər, Salatınlar, Rahilələr, Gültəkinlər kimi qəhramanları var. Bu gün onların əqidə davamçılarıdır şəhidlər də, qazilər də… Doğma torpaqlarımız 30 ildir işğaldadır, düşmən tapdağı altındadır. 27 ildir atəşkəs olmasına baxmayaraq erməni təzavüzkarları daima atəşkəsi pozmuşlar.

Dövlətimiz sülh yolu ilə, qan tökmədən torpaqlarımızı geri almaq üçün 30 il mübarizə apardı, ancaq Ermənistan dövləti ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozdu. Onun "Qarabağ Ermənistandır!" bəyanatı danışıqlar prosesinə ciddi zərbə oldu. Ermənistanın işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasətini həyata keçirməsi və yeni ərazi iddiaları dövlətimiz tərəfindən birmənalı qarşılana bilməzdi.

Prezidentimiz İlham Əliyev həmişə olduğu kimi, yenə də onlara düzgün istiqamət, düzgün yolu-münaqişəni sülh yolu ilə, danışıq və anlaşma ilə başa çatdırmağı təklif etdi. Ancaq bildiyimiz kimi, sentyabrın 27-də erməni təcavüzkarları bu təklifə "silahlarla" cavab verdi.

Azərbaycan dövlətinin Ali Baş Komandanı, Prezident İlham Əliyev işğalçı silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə ordumuzun silahdaşlarının əks-hücum əməliyyatına başlaması üçün qərar verdi.

Azərbaycan prezidenti İlham Əliyevin haqlı olaraq qeyd etdiyi kimi, müharibənin başlamasının məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Birləşmiş Millətlər Təşkilatının hələ 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini uzun illər ərzində davam etdirməyə çalışıb. Bu gün isə Azərbaycan ordusunun əsgəri haqqın və ədalətin bərpasını təmin etmək əzmindədir. Təcavüzkarlıq xislətindən əl çəkməyən Ermənistanın cəbhəyani rayonlarda və qoşunların təmas xəttinə yaxın ərazilərdə yaşayan dinc əhalini hədəf seçməsinə cavab olaraq Azərbaycan ordusunun sentyabrın 27-dən başladığı qətiyyətli əks-həmlə əməliyyatları xalqımızın milli qürur yeridir. Müharibənin nəticəsini müəyyən edən ən əhəmiyyətli göstərici ruh yüksəkliyidir. Erməni hərbiçilərinin bölgədə qandallanmış saxlanılmasına rəğmən Azərbaycan əsgərləri ruh yükəskliyi ilə döyüşürlər. Ali Baş Komandanımızın verdiyi hər bir qərar əsgərlərimizi və xalqımızı ölkə rəhbərliyinin ətrafında daha sıx birləşməyə ruhlandırır, qələbə əzmini yüksəldir.

Ilk gündən düşmənin ön müdafiə xəttinin yarılması, bir çox ərazilərimizin, döyüş üçün əhəmiyyətli yüksəkliklərin qısa zamanda işğaldan azad edilməsi xalqımızda qələbə ovqatının artmasına səbəb oldu. Düşməni zəbt etdiyi mövqelərdən sürətlə geri çəkilməsini məcbur edən, çoxlu sayda zirehli texnikasını və canlı qüvvəsini məhv edən Azərbaycan Silahlı qüvvələrinin böyük rəşadəti xalqımızın həddsiz sevincinə, vətənpərvərlik və milli qürur hissinin artmasına yeni təkan verdi.

Hər kəs vətən müharibəsində qalib gələcəyimizə ürəkdən inanır. Döyüş bölgələrinə getmək və qələbə əzmi ilə döyüşmək üçün vətənpərvər, könüllü gənclərimizin sayı gündən-günə artır. İndi yalnız gənclər deyil, hərbi rütbəli vətənpərvər oğullarımız da orduya səfərbər olur və hər an döyüşlərə iştirak etməyə hazırdırlar. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclüləri sırasında olduğunu döyüş meydanında nümayiş etdirir və etdirməkdədir. Müharibə hələ bitməyib, ordumuz müasir hərbi texnikadan məharətlə istifadə edir. İşğalçı ordunun döyüş meydanında qoyub qaçdığı və döyüşçülərimizin şücaətilə əldə olunan hərbi texnikadan torpaqlarımızı işğaldan azad etmək üçün istifadə olunur. Ali Baş Komandanımız İlham Əliyev demişdir: ***"İşğal edilmiş torpağında Azərbaycan bayrağı qaldırılır. Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük. Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir. Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!"***

Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri atəşkəsi pozaraq iriçaplı silahlardan və artilleriya qurğularından ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi atəşə tuturlar.

Dinc əhalini və mülki infrastrukturu hədəfə alan düşmən Azərbaycanın şəhər və rayonlarına, kəndlərinə mərmilər və qadağan olunmuş bombalar atırlar. Tərtər, Füzuli, Ağdam, bir sözlə döyüş bölgələrinə yaxın rayon, qəsəbə və kəndlərlə bərabər Bərdə, Mingəçevir, Gəncə, Bakının Abşeron rayonuna və Xızı qəsəbəsinə, Yevlax, Ağcabədi, Beyləqan və başqa bölgələrə mülki əhalinin daha sıx olduğu obyektlərə və yaşayış binalarına müxtəlif silahlarla atəş edilmişdir və edilir. Hətta humanitar atəşkəs rejiminin başlandığı ilk saatlardan atəşkəsi pozmuşlar.

Onlar dinc əhalini məqsədli şəkildə hədəfə alır, qadağan olunmuş mərmilərdən, o cümlədən fosforlu bombalardan istifadə edirlər.

Uğursuzluğundan və çoxsaylı itkilərindən diqqəti yayındırmaq üçün düşmən döyüşlərdən xeyli uzaqlarda olan şəhər və kəndlərimizi atəşə tuturlar. Bir neçə dəfə qədim Gəncəni raket atəşinə tutsalar da, ciddi dağıntılar törətsələr də, yerli əhali öz doğma şəhərini tərk etmir və qorxmurlar. Təkcə Gəncə şəhəri deyil, atəşə məruz qalan hər bir şəhərin, kəndin əhalisi onların məqsədyönlü terror hərəkətlərinin uduzmaqda olan bir ordunun sonuncu, əməlləri, hikkəsi olduğunu çox gözəl dərk edirlər. Ermənistan ordusu bununla öz acizliyini və qorxaqlığını nümayiş etdirirlər. Onların şəhərimizə və əhəmiyyətli obyektlərimizə atdıqları mərmilər və bombalar hava hücumundan müdafiə qüvvələrimiz tərəfindən zərərsizləşdirilmişdir. Zərərçəkən bölgə əhalisi ermənilərin həyata keçirdikləri təxribatlardan sarsılmır və Azərbaycan ordusunun tezliklə zəfər çalacağı günü səbirsizliklə gözləyirlər.

Həmçinin hal-hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Müharibə davam edir və torpaqlarımız işğaldan təmizlənənədək davam edəcək. Ali Baş Komandanımız dediyi kimi, biz öz torpaqlarımızın azadlığı uğrunda döyüşürük. Bu döyüşdə təkcə döyüşçülərimiz deyil, həkimlərimiz, eləcə də, arxa cəbhəninin vətəndaşları da yüksək əhval-ruhiyyə ilə çalışırlar. Bu gün hər bir Azərbaycan vətəndaşı öz işinin müsəlləh əsgəridir.

Əhali arasında ordumuza, əsgərlərimizə moral verən aksiyalar keçirilir, hər kəs öz bacarığı ilə qazanılacaq qələbədə payı olmasına çalışır.

Səhiyyə işçiləri gecə-gündüz əsgərlərimizin yanındadır, onların həyatda yaşaması, yaralılarının sağalaraq hər an döyüşə hazır olması üçün əsgərlərimizə qayğı göstərirlər.

Bütün xalqımız qələbə əzmindədir. İşğaldan təmizlədikcə alınan rayon və kəndlərdə, mövqelərdə dalğalanan Azərbaycan bayrağı hər kəsin gözlərində sevinc yaşı, ürəklərində qürur hissi yaradır. Üçrəngli, müqəddəslik, qürur rəmzi olan bayrağımız tezliklə Şuşada və bütün işğaldan təmizlənən torpaqlarımızda dalğalanacaq!

Biz zəfər çalacağıq!Axı Qarabağ Azərbaycandır!

**Bibixanım İSAYEVA.**

## Sülhə məcburetmə siyasəti

"Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatına başlamasına qərar verilib".

Əslində bu qərar gözlənilən idi. Belə ki, iyul ayında Azərbaycan Ermənistan sərhədinin Tovuz istiqamətində baş verən qısa müddətli toqquşmalardan sonra bölgədə hərbi və siyasi vəziyyət dəyişməyə başlamışdı. Tovuz hadisələrindən sonra ictimai rəydə dəyişiklik bu idi ki, işğal olunmuş ərazilərin geri alınması üçün Azərbaycan xalqının gözləntiləri yüksəlmişdi. 14-15 iyul tarixində Bakıda baş verənlər bir daha göstərdi ki, xalq Qarabağ tələbi ilə küçələrə çıxmışdı. Prezident tərəfindən verilən açıqlamalar xalqın gözlənilənlərini daha da artırdı. Azərbaycan -Türkiyə əməkdaşlığının yüksək səviyyədə olması, birgə hərbi təlimlərin keçirilməsi heç şübhəsiz Azərbaycanı cəsarətləndirən əsas amillərdəndir.

Aydındır ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri (Rusiya, ABŞ, Fransa) başda olmaqla, dövlətlər, beynəlxalq təşkilatç tərəfləri dərhal hərbi əməliyyatları dayandıracaq danışıqlar masasına oturmağa çağırırlar. Lakin onu da qeyd etmək lazımdır ki, münaqişənin 30 ilə yaxın dövrdə uzanmasının və həll olunmamasının səbəblərindən məhz vasitəçi dövlətlərin Ermənistanın işğalçı mövqeyi ilə işğala məruz qalan Azərbaycana münasibətdə heç bir fərqin qoyulmaması idi. Problemi dondurmaqla, hazırki status -KVO-nun saxlanılması əlbəttə qəbuledilməzdir.

Ermənistan hüququn əsas prinsiplərini pozur, BMT TŞ-nin işğalın aradan qaldırılması ilə bağlı qətnamələri yerinə yetirmir. Sülh əlbəttə vacibdir. Münaqişənin qalması zərərlidir. Ancaq sülh beynəlxalq hüquqa, ədalətə uyğun olmalıdır. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü çərçivəsində sülhə razılaşmaq olar. Bundan ötrü Ermənistan işğal etdiyi bütün ərazilərdən çıxmalıdır. Beynəlxalq təşkilatlar, dövlətlər Ermənistanı sülhə məcbur etməlidir. Azərbaycanın hansısa alçaldıcı sülhə məcbur edilməsi ehtimalı yoxdur. Hərbi sahədə, hərbi, diplomatik, iqtisadi imkanlarımız imkan verir ki, ərazi bütövlüyümüzü bərpa edək. Bu gün reallıq bundan ibarətdir ki, Azərbaycan məsələ ilə bağlı mövqeyini ortaya qoyub. Azərbaycan ərazi bütövlüyü prinsipindən hər hansı formada geri çəkilməyəcək. Ali Baş Komandan Cənab Prezidentin çıxışında qeyd olunduğu kimi, Azərbaycanın işi haqq işidir! Qarabağ Azərbaycandır! Zəfər bizimdir!

**Ümidvar HƏSƏNOV,**
**Kürd tam orta məktəbi.**

## Ordumuz tarix yazır

Azərbaycan Respublikasının Milli Ordusu Dağlıq Qarabağı düşmən tapdağından azad etmək üçün uğurlu addımlar atıb. Və bu gün də bu uğurlu addımlar davam edir. Dağlıq Qarabağ ordumuzun uğurlu əməliyyatları nəticəsində demək olar ki, geri qaytarılır. Ordumuzun igid oğulları müharibənin ilk günündən artıq xalqına xoş xəbərlər verdi. Sadəcə döyüşün 1-ci həftəsində düşmənin artıq yüzlərlə texnikası məhv edildi. Əsgərləri əsir götürüldü. Erməni əsgərləri igidlərimiz ilə döyüşdə öz texnikalarını, silahlarını qoyub qaçdılar. Və hələ də qoyub qaçmağa davam edirlər. Ən əsası da müharibənin ilk günlərindən üstünlüyü əldən verməyən igidlərimiz onlarla kəndimizi, çox böyük strateji əhəmiyyət daşıyan Murovdağ yüksəkliyini, Madagiz, tarixi adı ilə desək, Suqovuşan ərazisini və bir şəhərimizi - Cəbrayıl şəhərini işğaldan azad etdilər. Və hələ də ordumuz uğurla irəliyə doğru addımlayır. Ordumuzun gücünü görən düşmən isə hər zamanki xain planlarından, təxribatlarından əl çəkmir, döyüş bölgəsindən çox kənarda yerləşən rayon və şəhərlərimizə raketlər atmağa davam edir. Amma erməni hələ də bilmir ki, Azərbaycan xalqı neçə ildir bu anın gəlməsini gözləyirdi. İndi bir raketə geri çəkilərmi? Əlbəttə çəkilməz. 30 ilə yaxındır ki, səbr edən xalqın da səbri bu yerə qədərdir. Biz xalqımızın, prezidentimizin çıxışlarında da bunun şahidi oluruq. Şanlı Azərbaycan ordusu o qədər sürətlə, yüksək əhval-ruhiyyə ilə önə doğru gedir ki... Axı insan necə qürur duymasın bu mənzərələri görəndə?.

Bu gün artıq Qarabağımızı Şanlı Ordumuz geri qaytarır. Cəbrayılı aldıq. Şuşa, Xankəndi, Kəlbəcər, Laçın, Xocalı, Xocavənd, Ağdərə, Ağdam, Füzuli və Qubadlı bizi gözləyir. Şəhidlərimiz, rahat uyuyun! Çünki bu torpaqlar uğrunda tökülən qanınız yerdə qalmır. Qisasınız alınır artıq. Şəhid anaları, övladlarınızın qanı tökülən torpaqlar geri alınır. Artıq gələcək nəsillər işğal olunmuş torpaqlarımızın tarixini yox, azad olunmuş torpaqlarımızın tarixini öyrənəcəklər. Çünki güclü ordumuz yeni bir tarix yazır. Elə bir tarix ki, bir daha silinməyəcək. Bu yolda Allah Ordumuza güc-qüvvət versin. Biz Ordumuzla fəxr edirik. QARABAĞ AZƏRBAYCANDIR!

**İlahə RƏHİMOVA,**
**Vəndam qəsəbəsi.**